

# Fəxrəddin Əbülfət oğlu Qədirov – 70 il!

Geofizika elminin görkəmli siması, layiqli insan, geologiya-mineralogiya elmləri doktoru, professor, akademik Fəxrəddin Əbülfət oğlu Qədirov 1950-ci il iyulun 19-da Şəki şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1967-ci ildə orta məktəbi gümüş medalla bitirib Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) fizika fakültəsinə daxil olmuş və 1972-ci ildə oranı bitirmişdir.

F.Qədirov 1984-cü ildə fizika-riyaziyyat elmləri namizədi və 2002-ci ildə geologiya-mineralogiya elmləri doktoru elmi dərəcələrini, 2007-ci ildə isə geofizika ixtisası üzrə professor elmi adını almışdır. 2007-ci ildə AMEA-nın müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilmişdir.

F.Qədirov əmək fəaliyyətinə fizika müəllimi kimi başlamışdır. O, 1974-cü ildə AMEA Geologiya İnstitutunun (indiki Geologiya və Geofizika İnstitutu) "Qravimetriya" laboratoriyasına işə qəbul edilmiş, 1989-2003-cü illər ərzində" Qravimetriya" laboratoriyasına, 2005-2007-ci illərdə "Geotektonika və Geodinamika", 2008-ci ildən "Geodinamika və Seysmologiya" şöbəsinə rəhbərlik etmişdir. 2008-ci ildən "Yer Fizikası" seksiyasının, 2015-ci ildən isə "Geodinamika və kosmik geodeziya" şöbəsinin rəhbəridir. F.Qədirov, eyni zamanda AMEA Geologiya və Geofizika İnstitutunun nəzdində fəaliyyət göstərən Nüvə Sınaqlarının Hərtərəfli Qadağan olunması Müqaviləsi Təşkilatının (CTBTO) Azərbaycan Milli Məlumat Mərkəzinin rəhbəridir. O, Azərbaycan Milli Elmlər Akademiyasının Türkiyə Cümhuriyyəti Öyrətim Kurulu ilə imzaladığı qarşılıqlı elmi əlaqələr protokolu çərçivəsində 1992-1995-ci illərdə Atatürk universiteti "Zəlzələ Araşdırma Mərkəzində", 1996-1998-ci illərdə isə Qara dəniz Texniki Universitetinin "Geofizika Mühəndisliyi" bölümündə professor vəzifəsində çalışmışdır.

F.Qədirov 2013-2019-cu illərdə AMEA Rəyasət Heyətinin üzvü və Yer Elmləri Bölməsinin akademik katibi olmuşdur. Hazırda AMEA Yer Elmləri Bölməsi Elmi Şurasının sədr müavinidir. AMEA RH qərarı ilə 2020-ci ildə Neft və Qaz İnstitutuna direktor təyin edilmişdir.

2000 və 2001-ci illərdə Massaçusets Texnologiyalar İnstitutunda elmi ezamiyyətdə olmuş və GPS texnologiyasını mənimsəyərək, ilk dəfə bu texnologiyanı plitə tektonikası konsepsiyası çərçivəsində Qafqaz-Xəzər regionunun geodinamik və kinematik şəraitini, neftli-qazlı sahələrin və enerji dəhlizlərinin geodinamik təhlükəsizliyinin öyrənilməsində tətbiq etmişdir.

F.Qədirovun elmi fəaliyyətinin əsas istiqamətini geofiziki sahələrin ədədi analizi və məkan-zaman paylanma qanunauyğunluğunun öyrənilməsi, Qafqaz-Xəzər regionunun Yer qabığı müasir hərəkətlərinin GPS monitorinqi, müasir kinematikası, dərinlik quruluşunun modelləşdirilməsi, zəlzələ və qırılmaların fraktal və statistik metodlarla tədqiqi təşkil edir. O, Qafqaz plitəsinin mövcudluğunu, saat əqrəbinin əks istiqamətində dönməsini və Azərbaycan ərazisinin plitə tektonikası konsepsiyasına əsaslanan yeni geodinamik modelini təklif etmişdir. Qravimetrik müşahidələrin təhlili əsasında güclü zəlzələdən əvvəl qravitasiya sahəsinin qabaran variasiyalarında fluktuasiyaların meydana gəlməsini göstərmişdir. O, həmkarları ilə birlikdə Azərbaycanın neftli-qazlı ərazilərinin çöküntü təbəqələrindəki qravitasiya tarazlığı proseslərini nəzəri olaraq öyrənmiş və flüidlər miqrasiyasının konveksiya və palçıq vulkanlarının aktivləşmə modelini işləmişdir.

F.Qədirov 250-dən artıq elmi məqalənin, o cümlədən rus dilində nəşr olunan "Azərbaycanın qravitasiya sahəsi və dərinlik quruluşunun modeli" monoqrafiyasının müəllifi, "Геология Азербайджана" IV, V və VII cildlərinin, ingilis dilində "Hydrocarbon systems of the South Caspian Basin", Springer nəşriyyatında çap olunan iki cildlik "Geosciences of Azerbaijan" və s. kitabların, Xəzər regionunun qravitasiya xəritəsinin həmmüəllifidir. Tanınmış beynəlxalq jurnallarda onun əsərlərinə çox sayda istinad olunur. Onun rəhbərliyi ilə geofizika üzrə 14 fəlsəfə doktoru və 2 elmlər doktoru hazırlanmışdır. O, BDU-nun geologiya fakültəsinin "Seysmologiya və Yer təkinin fizikası" kafedrasının professoru və AMEA-nın Geologiya və Geofizika İnstitutundakı filialının rəhbəridir. 2010-cu ildə AMEA-nın Fəxri Fərmanı və 2015-ci ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

F.Qədirov Avropa Geoloq Alim və Mühəndislər Assosiasiyasının (EAGE), Amerika Neftçi-Geoloqlar Assosiasiyasının (AAPG), Amerika Geofizika İttifaqının (AGU), Avropa Yer Elmləri İttifaqının (EGU) və Azərbaycan Geofizika Cəmiyyətinin üzvüdür. O, eyni zamanda AMEA-nın "ANAS Transactions, Earth Sciences" jurnalının redaktor müavini, "Azərbaycanda Geofizika Yenilikləri" jurnalının, "Azərbaycan ərazisində seysmoproqnoz müşahidələri", TC Pamukkale Üniversitesi "Mühendislik Bilimleri Dergisi" məcmuələrinin redaksiya heyətinin üzvü və Avropa "Geophysical Prospecting" və "Geodynamics" və s. elmi jurnalların rəyçi ekspertidir. 2009-cu ildən Beynəlxalq Geodeziya və Geofizika İttifaqı (İUGG) nəzdindəki Azərbaycan Milli Geodeziya və Geofizika Komitəsinin (AMGGK) Beynəlxalq Geodeziya Assosiasiyasının, Elmlər Akademiyalarının Beynəlxalq İttifaqının (MAAN) Azərbaycan üzrə "Geodeziya və Geofizika" Elmi şurasının rəhbəridir. F.Qədirov bir çox beynəlxalq konsorsiumlarda layihə rəhbəri olmuşdur. Alim dəfələrlə ABŞ və Avropada keçirilən beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış etmişdir.

70 illik yubileyini qeyd edən, yüksək insani dəyərlərə və tükənməz ideya generasiya potensialına malik olan vətənsevər alim akademik Fəxrəddin Qədirov bu gün də elmi axtarışlarına davam edir və fundamental elmi məsələlərin həllini düşünür. Yubileyi münasibətilə onu səmimi qəlbdən təbrik edir, uzun ömür, möhkəm cansağlığı, gələcək elmi, pedaqoji və ictimai fəaliyyətində uğurlar arzulayırıq.

**AMEA-nın birinci vitse-prezidenti,**
**akademik İbrahim Quliyev**